Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Azərbaycanda milli kadrların hazırlanmasında Heydər Əliyevin rolu

**Azərbaycan Respublikasının Prezidenti yanında Heydər Əliyev Mərkəzlərini idarə etmə komitəsinin, Prezident Adminstrasiyasında Heydər Əliyev Mərkəzləri ilə iş üzrə siyasi şöbənin, peşəkar, ixtisaslı Heydər Əliyevşünasların hazırlanması, təhsil almaları üçün Heydər Əliyevşünaslıq Akademiyasının, universitetlərdə, Ali İdarəetmə Akademiyasında fakültələrin, kafedraların, Elmi-Tədqidat İnstitutunun yaradılması, Ulu Öndərin 100 illiyinə ən böyük hədiyyə olardı.**

Qədim tarixə malik ulu xalqımız özünün xoş və çətin günləri üçün həmişə öndə gedən şəxsiyyətlər bəxş etmişdir. XX əsrin ikinci yarısı da xalqımızın tarixində çətin və keşməkeşli, eyni zamanda ürəkaçan, parlaq olub. Xalqını, millətini, onun qədim tarixini, mədəniyyətini, incəsənətini, ədəbiyyatını dərindən bilən, müasir müstəqil dövlətçilik tariximizin təməl daşlarını 50-ci illərin ortalarından qoymağa başlamış müdrik, uzaqgörən, əbədiyaşar rəhbərimiz, görkəmli siyasi xadim Heydər Əliyev XX əsrin ortalarından xalqımızın bənzərsiz dünyəvi siyasi xadim olaraq Azərbaycanın müasir tarixinə, bəşər tarixinə bəxş etdiyi parlaq tarixi şəxsiyyətdir.

Dünya xalqlarının tarixinə nəzər salsaq görərik ki, ayrı-ayrı ictimai-siyasi quruluşlarda həmin siyasi quruluşun ziddinə olaraq müasir müstəqil demokratik hüquqi, dünyəvi Respublikanın demokratik, iqtisadi, siyasi, kadr əsaslarını qurmaq məqsədilə kommunist sovet rejiminuin sərt qanunları şəraitində demokratik fikirli ideyaları müdafiə etmək və dəstəkləmək, milli kadr hazırlığını həyata keçirmək, xalqını, millətini qəhrəman xalq olaraq təqdim etməyə heç bir siyasi xadim, tarixi şəxsiyyət cürət etməyib. Ancaq dünya miqyaslı siyasi xadim Heydər Əliyev 50-ci 60-cı illərdə DTK-da işləyərkən milli kadr hazırlığına, milli-mənəvi dəyərlərimizin, dilimizin, dinimizin, mədəniyyətimizin, tariximizin inkişafına xüsusi diqqət yetirib, demokratik fikirli ideyaları müdafiə edib.

Həmin illərdə Azərbaycanda və Moskvada, həmçinin də dünyanın hər yerində Heydər Əliyev barəsində yüksək ictimai-siyasi fikir yaranmışdı. Onun fəaliyyətinə ittifaq rəhbərliyi yüksək qiymət verirdi və bu yüksək qiymətin nəticəsi olaraq SSRİ rəhbərliyi Heydər Əliyevi təkidlə 1969-cu il 14 iyulda Azərbaycan SSR-ə rəhbər təyin etdi.

Çox düzgün seçim edən Sovet rəhbərliyi Heydər Əliyevin şəxsində Azərbaycanın tez bir zamanda sürətli inkişafını görür və hiss edirdi. Qısa zaman kəsiyində Azərbaycanda həyat sanki yenidən başladı. İqtisadi, sosial, mədəniyyət, incəsənət, kənd təsərrüfatı, sənaye, energetika, maşınqayırma, elm, təhsil, kadrların seçilib yerləşdirilməsi və sair sahələrdə əsaslı dönüş yaradıldı. Azərbaycan nəinki ittifaqda, hətta xarici ölkələrdə tanındı.

Heydər Əliyev SSRİ büdcəsindən şəxsi nüfuzundan və hörmətindən məharətlə istifadə edərək müasir dövrümüzü, bu günümüzü və gələcəyimizi görür və düşünürmüş kimi indiki müstəqil dövlətimizin iqtisadi, sosial bazasını tam şəkildə qurub bu günümüzə bəxş etdi. Ulu öndərin SSRİ-də və dünyada nüfuzunun artması, onun rəhbərlik, təşkilatçılıq, yaradıcılıq, diplomatik bacarığı, geniş dünyagörüşü, dünya siyasətinə dərindən bələd olması onun daha da yüksək vəzifəyə irəli çəkilməsinə gətirib çıxardı. SSRİ rəhbərliyi hələ 60-cı illərdən tanıdığı və onun siyasi təfəkkür tərzinə, şəxsi keyfiyyətlərinə yüksək qiymət verdiyi Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, MK Siyasi Bürosunun üzvü, Sosial Siyasət komissiyasının sədri, Şərq ölkələri üzrə müşavir təyin etdi. O, bu vəzifədə həm xarici siyasət məsələlərində, həm də iqtisadi islahatların həyata keçirilməsində, dövlət quruculuğunda nəzərə çarpacaq yenilikləri ilə seçilirdi. Tükənməz enerjisi və iş qabiliyyəti, işindəki ciddilik, intizamlılıq, qanunları dərindən bilməsi, yüksək məsuliyyət hissinə malik olması Heydər Əliyevə böyük etimad qazandırmışdı.



1982-1987-ci illərdə Sovet dövlətinin orta Şərqdə xarici siyasətini demək olar ki, Heydər Əliyev aparırdı. O, Misir, Suriya, İordaniya, Pakistan, İraq və başqa ölkələrə səfərlər etmişdir. Dünyanın 26 ölkəsində səfərdə Sovet dövlət və hökumət nümayəndə heyətinə rəhbərlik edib. Bu səfərlərdə Heydər Əliyev çox böyük məharətlə Azərbaycanı və onun xalqını, dilimizi, dinimizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi yüksək səviyyədə tanıdıb. Xarici ölkələrdə Azərbaycan barəsində geniş fikir formalaşdırıb. Özünü Azərbaycanlı olaraq dünyaya təqdim etməklə öz şəxsi keyfiyyətlərini və diplomatik siyasi qabiliyyəti ilə xalqımızı dərindən dünya xalqlarına və dövlətlərinə tanıtdırıb.

Heydər Əliyevin SSRİ-də və dünyada nüfuzunun artması və SSRİ rəhbərliyinə real namizəd olması ermənipərəst Mixail Qorbaçovu narahat etməyə bilməzdi. Keçmiş SSRİ xarici işlər naziri Andrey Qromıkovun oğlu Anatoli Qromıko atasının dediyi fikri belə ifadə edib: "SSRİ rəhbərliyinə cavan, enerjili, yüksək diplomatik qabiliyyəti olan, dünyada tanınan və qəbul olunan yalnız və yalnız Heydər Əliyev layiq idi".

Bu səbəbdən də M.Qorbaçov ona qısqanclıqla yanaşaraq Heydər Əliyevə qarşı çıxdı. Lakin Heydər Əliyev bir şəxsiyyət olaraq öz ucalığını bir daha sübut etdi. Çətin şəraitdə olsa da, həmişə olduğu kimi, öz xalqı ilə həmrəylik nümayiş etdirirdi. Öz xalqının dəstəyi ilə yenidən özünün qurub yaratdığı müasir müstəqil Azərbaycan dövlətinə rəhbərliyə gəldi.

Müdrik, uzaqgörən Liderimiz Heydər Əliyev çoxşaxəli, hərtərəfli inkişaf etmiş, günü-gündən zənginləşən, müasirləşən, yeniləşən, qloballaşan sivil dünyaya qovuşan Azərbaycan adlı Şah əsərini yaratdı və təmənnasız olaraq öz xalqına bəxş etdi. Xalqının, dünya azərbaycanlılarının, türk dünyasının Ümummilli Liderinə, qurtuluş dahisinə çevrildi. Dünyanın qəbul etdiyi siyasi xadim olaraq bəşər tarixinə əbədi lider, tarixi şəxsiyyət olaraq daxil oldu. Dünya xalqlarının, bəşəriyyətin mənafeyinə xidmət etməyə qadir olan ali siyasi kursumuzu - Heydər Əliyev siyasi kursunu, yüzilliklərə hesablanmış siyasi kursu bizlərə bəxş etdi.

Təbii ki, bu gün bəşər tarixinə, dünya xalqlarının və dövlətlərinin müasir milli müstəqil dövlətçilik tarixinə geniş və əhatəli diplomatik, ictimai-siyasi, iqtisadi, quruculuq, xilaskarlıq fəaliyyəti ilə bənzərsiz dünyəvi siyasi xadim, Ümummilli lider, Qurtuluş dahisi olaraq daxil olmuş Ulu öndər Heydər Əliyevin siyasi irsini, onun çoxşaxəli fəaliyyətinin daha da dərindən öyrənilməsi, elmi, siyasi əsərlərin yazılması və tədrisi məqsədilə daha məqsədəuyğun olar ki, Azərbaycan Milli Elmlər Akademiyasında Heydər Əliyevşünaslıq İnstitutu yaradılsın. Bakı Dövlət Universitetində Heydər Əliyevşünaslıq elminin tədrisi üçün kadr hazırlayan fakultə, kafedralar təşkil edilsin. Həmçinin Heydər Əliyevin həyat və fəaliyyətinin uşaqlıq və gənclik, DTK, Sovet Azərbaycanının rəhbəri, Moskva dövrünü, 1987-1990-cı illər siyasi təzyiqlər və mənəvi repressiya, Naxçıvan və Müstəqil Azərbaycanın rəhbəri-prezidenti dövrlərinin tam və əhatəli öyrənilməsi üçün ali və orta ixtisas, orta məktəblərdə Heydərşünaslıq dərsləri ayrıca tədris edilsə daha məqsədəuyğun olar.

Rayonlarda Heydər Əliyev Mərkəzlərinə Mədəniyyət idarələrinin rəhbərləri adi iş yeri kimi baxırlar. Regional Mədəniyyət İdarələrinin tabeçiliyində olan, Rayon İcra Hakimiyyətlərinin "nəzarətində" olaraq həmin idarələrin Ulu öndərin siyasətinin təbliğ edilməsində marağı olmayan rəhbərləri tərəfindən şəxsi münasibətlər zəminində Heydər Əliyev mərkəzlərinə heç də peşəkar, savadlı, Heydər Əliyevşünaslıq elmindən xəbəri belə olmayan şəxsləri - özlərinə yaxın olan, cibində pulu olan, ancaq başında heç bir biliyi olmayan şəxsləri işə qəbul ediblər.

Tovuz rayonunda milli-mənəvi dəyərlərimizə, etik davranış qaydalarına əməl etməyən, Ulu Öndərin siyasətini dərk etməyən, sualları cavablandıra bilməyən, sualları cavablandıra bilmədiklərinə görə də sualı verən şəxslərə qarşı təhqirə, böhtana, şərə əl atan, Ulu Öndərin siyasətinin, onun fəaliyyətinin ayrı-ayrı dövrləri barəsində məlumat vermək qabiliyyətinə malik olmayan qeyri-peşəkarları Ulu Öndərin siyasətinin təbliğ edilməsindən, mənimsənilməsindən, öyrənilməsindən öz şəxsi maraqlarını üstün tutan həmin idarələrin rəhbərləri tərəfindən Heydər Əliyev Mərkəzlərinə elmi işçi, bələdçi və s. vəzifələrə təyin ediblər.

Heydər Əliyev Mərkəzi ən azından siyasi mərkəzdir. Dövlət başçımız XXI əsrin ən görkəmli bənzərsiz dünyəvi siyasi xadimi cənab İlham Əliyev Heydər Əliyev siyasətinin davamı olaraq bu siyasət əsasında dövrün, zamanın tələblərinə uyğun olaraq, dövlətimizin və xalqımızın, milli maraqlarımızın qorunub möhkəmləndirilməsi, dövlətçiliyimizin, müstəqilliyimizin daimi və əbədi olması üçün yüzilliklərə, minilliklərə hesablanmış siyasətə uyğun olaraq uğurlu, məqsədyönlü daxili və xarici siyasət kursunu həyata keçirir.

Dövlət siyasətimizin əsasını Ulu öndərin dövlətçilik fəlsəfəsi, azərbaycançılıq ideologiyası təşkil edir. Ölkəmizdə ali təhsilli hüquqşünaslar, müəllimlər, həkimlər öz ixtisasları üzrə işə qəbul olunmaq üçün Dövlət İmtahan Komissiyasının, aidiyyəti dövlət orqanlarının təşkil etdikləri imtahandan, müsahibədən, bilik və bacarıqları üzrə diaqnostik qiymətləndirmədən keçməklə müəyyən edilmiş bal toplamaqla, sertifikasiya şəhadətnaməsi verildikdən sonra ayrı-ayrı sahələr üzrə işə qəbul edilirlər. Ancaq qeyri-peşə sahibləri öz ixtisaslarını belə bilməyən, öz ixtisasları üzrə imtahandan, müsabiqədən keçmək qabiliyyəti olmayan biliyi, savadı, təbliğ etmə bacarığı, müdrik rəhbərimizin siyasətindən anlayışı olmayan şəxslər şəxsi münasibətlər zəmnində testdən, imtahandan, müsabiqədən keçmədən onlara Heydər Əliyevşünaslıq, siyasətşünaslıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən bu ixtisaslar üzrə praktik fəaliyyətlə məşğul olmaq üçün icazə verilməsini təsdiq edən sertifikasiya şəhadətnaməsi verilmədən, təqdim edilmədən Heydər Əliyev Mərkəzlərinə işə qəbul ediliblər.

Əbədiyaşar müdrik, uzaqgörən bənzərsiz dünyəvi siyasi xadim, Qurtuluş dahisi, Ümummilli lider, Ulu Öndər, Azərbaycan adlı şah əsərinin müəllifi Heydər Əliyev siyasətinin təbliğ edilməsi, mənimsənilməsi "Heydər-Xalq", "Xalq-Heydər" fəlsəfəsinin əbədiliyini tam şəkildə təmin etmək, gənclərin mərkəzlərin işində, fəaliyyətində iştirakını təşkil etmək və s. dövlət və ümumxalq əhəmiyyətli məsələlərin həll edilməsində yaxından dəstək olmaq məqsədilə rayon və şəhərlərimizdə yaradılmış, təşkil edilmiş Heydər Əliyev mərkəzlərində dövlətimiz tərəfindən hər cür şərait yaradılmasına baxmayaraq çox təəssüf ki, hələ də peşəkar Heydər Əliyevşünasların, ixtisaslı kadrların hazırlanaraq mərkəzlərə işə qəbul edilməsi məsələsi öz həllini tapmamışdır. Rayonlarda fəaliyyət göstərmələrinə və dövlət səviyyəli siyasi mərkəzlər olmasına baxmayaraq rayon səviyyəli mədəniyyət idarələrinin tabeliyində muzey kimi fəaliyyət göstərirlər.

Mərkəzlərə adi iş yeri kimi, adi muzey kimi baxan mədəniyyət idarələrinin rəhbərləri, o cümlədən Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Nurəddin Mehdiyev, idarənin Tovuz rayonu üzrə nümayəndəsi Adil Həsənov qeyri-peşəkarları, Ulu Öndərin siyasətindən xəbəri olmayan, özlərinə yaxın olan şəxsləri şəxsi maraqlarını milli maraqlarımızdan üstün tutaraq mərkəzdə işləmələrinə şərait yaradıblar, onlara dəstək verirlər.

Nurəddin Mehdiyev, Adil Həsənov şəxsi maraqlarını Ulu Öndərin siyasətinin təbliğ edilməsindən, mənumsənilməsindən üstün tutduqlarına görə mərkəzin işində, fəaliyyətində heç bir dönüş yaratmamışlar.

Qeyri peşəkarları işdən azad edib, əsl Əliyevşünasları işə qəbul etmək əvəzinə pul alıb işə qəbul etdikləri qeyri-peşə sahiblərini, yaxınlarını, İcra Başçısının müavini Tərənə Bayramovanın qeyri-ixtisas sahibi olan qızı mərkəzdə elmi işçi ştatında olan qızını müdafiə etmək, özlərini dövlətə sədaqətli şəxs kimi təqdim etmək məqsədilə onun ssenarisi əsasında mərkəzdə görüntü xatirinə ayrı-ayrı idarələrdən 5-10 nəfər işçini mərkəzə dəvət edib tədbir adı altında yığıncaq keçirirlər. Həmin tədbirlərdə dövlət siyasətimizin təbliğindən daha çox İcra Başçısının qızının təbliğatı həyata keçirilir, şəkillər çəkdirilir sosial şəbəkələrdə yayımı təşkil edilir.

Ağstafa Regional Mədəniyyət İdarəsi rəhbərliyi, o cümlədən idarənin Tovuz rayonu üzrə nümayəndəsi öz şəxsi maraqlarını milli maraqlarımızdan üstün tutan Adil Həsənov 4 mart 2020-ci ildə Prezident cənab İlham Əliyevin Tovuza səfəri çərçivəsində Tarix-Diyaqşünaslıq muzeyinin açılışı zamanı orada olan saxta xəritənin, düşmən dövlətin maraqlarına xidmət edən xəritənin eksponat kimi dövlət başçımıza göstərilməsinə və xəritənin saxta olmasına iradını bildirməsinə bir başa məsuliyyət daşıdığına görə cəzasız qaldığına görə. bu gün də həmişə olduğu kimi Heydər Əliyev Mərkəzinin fəaliyyətində öz şəxsi maraqlarını önə çəkərək Nurəddin Mehdiyevin, Tərənə Bayramovanın dəstəyi ilə ciddi qanun pozuntularına yol verir. Nurəddin Mehdiyevi ələ alıb istədiyi özbaşınalığı edir.

Adil Həsənov mərkəzin işində fəaliyyətində dönüş yaratmaq əvəzinə, Ulu Öndərin siyasətini təbliğ etdiyimə görə, Prezidentimizə dəstək verərək onun saxta xəritəyə iradını bildirməsinə dəstək verərək onun nöqsanları barəsində tənqidi çıxışıma görə, tənqidə görə təqib qadağan olmasına baxmayaraq Tərənə Bayramova, Rəşad Zeynalovla işbirliyi quraraq məni həbs etdirmək məqsədilə mənim barəmdə xüsusi ittiham qaydasında Cinayət Məcəlləsinin 147-ci və 148-ci maddələrinin tələblərinə əsasən Məhkəmədə iddia qaldırıb.Məhkəmə mənim təqdim etdiyim əsaslı faktları, əsaslı çıxışımı qiymətləndirərək və onun Məhkəmə iclasına gəlməməsini Məhkəmədə iddiasını sübut etmədiyinə görə onun iddiasını rədd etmişdir.

Bəli budur Heydər Əliyev Mərkəzlərinə Mədəniyyət İdarələrinin Adil Həsənov, Nurəddin Mehdiyev kimi rəhbərləri Heydər Əliyev siyasətinin təbliğ edilməsində maraqlı olan şəxsləri, o cümlədən məni bu cür qiymətləndirirlər, "mükafatlandırırlar", yəni mənə qarşı mənəvi repressiya həyata keçirilər.

Ancaq müdrik rəhbərimizin siyasətindən anlayışı olmayan qeyri-peşə sahiblərini şəxsi münasibətlərini önə çəkərək müdafiə edirlər.

Ona görə də mən vətəndaş olaraq, media nümayəndəsi olaraq bənzərsiz dünyəvi siyasi xadim, Qurtuluş dahisi, müasir müstəqil, demokratik, hüquqi, dünyəvi Azərbaycan Respublikasının qurucusu və baş memarı, banisi, tarixi əvəzolunmaz şəxsiyyət, bənzərsiz dünyəvi siyasi xadim ümummilli lider Heydər Əliyevin siyasi irsinin təbliğ edilməsi, mənimsənilməsi məqsədilə fəaliyyət göstərən mərkəzlər üçün yüksək peşəkar, siyasi biliyə, təfəkkürə, siyasi təhlil və təbliğ etmə bacarığına malik, yüksək mədəniyyətə, əxlaqa malik olan, etik davranış qaydalarına və prinsiplərinə əməl edən, xarici dildə, o cümlədən ingilis, rus dillərində danışmağı, izah etməyi bacaran, milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşan, Azərbaycan tarixini, diplomatiya tarixini, fəlsəfəni, dövlət başçımızın uğurlu, məqsədyönlü düşünülmüş daxili və xarici siyasətini müdrik rəhbərimizin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq ideologiyasını, fəaliyyətinin ayrı-ayrı dövrlərini, onun yüzilliklərə, minilliklərə hesablanmış siyasətini mənimsəyərək dərindən bilən, onun şəxsiyyətinin fərdi xüsusiyyətlərini bilən ixtisaslı kadrların, elmi işçilərin, bələdçilərin, siyasətşünasların, Heydər Əliyevşünasların hazırlanmasını və mərkəzlərə mütəxəssislərin işə qəbulunun mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi məqsədilə Heydər Əliyevşünaslıq Akademiyasının, Universitetlərin, Ali İdarəetmə Akademiyasında, Bakı Dövlət

Universitetində Heydər Əliyevşünaslıq fakültəsinin, Elmlər Akademiyasında elmi-tədqiqat Heydər Əliyevşünaslıq İnstitutunun yaradılmasını, mərkəzlərə bu ixtisaslar üzrə mütəxəssislərin işə qəbul edilməsinin Dövlət İmtahan Komissiyası vasitəsilə testdən, diaqnostok qiymətləndirmədən, sertifikasiya üzrə imtahandan, müsahibədən keçməklə, müəyyən edilmiş bal toplamaqla, Prezident Adminstrasiyasında aidiyyəti şöbələrdə söhbətdən, nəzərdən keçirilməklə Dövlət İmtahan Komissiyasının rəyi əsasında sertifikasiya şurası sədrinin imzası ilə Heydər Əliyevşünaslıq ixtisası üzrə sertifikasiyadan keçməsini bildirən və həmin şəxslərə mərkəzlərdə elmi işçi, bələdçi, direktor işləməyə icazə verilməsini təsdiq edən sertifikasiya şəhadətnaməsi verildikdən sonra mərkəzlərə peşəkar Heydər Əliyevşünasların işə qəbulunun prezident cənab İlham Əliyevin köməkçisi Bakı şəhərində respublika və dünya səviyyəsində fəaliyyət göstərən, dünyanın nəzər diqqətini cəlb edən Heydər Əliyev Mərkəzinin direktoru cənab Anar Ələkbərovun rəhbərliyi ilə həyata keçirilməsini, təsadüfü şəxslərin şəxsi maraqlar zəminində işə qəbul edilmələrinin qarşısını almaq, qeyd etdiyim kimi Heydər Əliyev Mərkəzləri siyasi mərkəz olduğuna görə və dövlətimiz Ulu öndərin siyasətinin davamı olaraq idarə olunduğuna görə, bu mərkəzlərin elmi siyasi potensialını daha da genişləndirmək, idarə etməni, təbliğatı mərkəzləşdirilmiş qaydada həyata keçirmək məqsədilə mərkəzlərin rayon səviyyəli mədəniyyət idarələrinin tabeliyindən alınaraq Anar Ələkbərovun rəhbərliyi ilə Bakı şəhərində fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinin tabeliyinə verilməsini, Anar müəllimin sədrliyi ilə Azərbaycan Respublikasının prezidenti yanında Heydər Əliyev mərkəzlərini idarə etmə üzrə siyasi komitənin, Prezident Adminstrasiyasında Heydər Əliyev Mərkəzləri ilə iş üzrə şöbəsinin yaradılmasını, mərkəz əməkdaşlarına dövlət qulluqçusu statusunun verilməsini təklif edirəm.

Əminəm ki, mənim təkliflərim dövlət başçımız tərəfindən qəbul ediləcək və tezliklə müasir müstəqil dövlətçilik tariximizin yaradıcısı və banisi, bənzərsiz dünyəvi siyasi xadim, Azərbaycan adlı şah əsərinin müəllifi və baş memarı Heydər Əliyevin 100 illik yubileyinə, "Heydər Əliyev ilinə" hədiyyə olaraq Heydər Əliyevşünaslıq Akademiyasının, Universitetinin, Heydər Əliyev Mərkəzlərini idarə etmə üzrə siyasi şöbənin, komitənin yaradılması haqqında sərəncam imzalayacaq.

Bəli, doğrudan da bu gün, sabah, gələcəkdə də Heydər Əliyevşünaslara hər zaman hər yerdə ehtiyacımız var.

Sovet dövlətində totolitar Kommunist rejimində bizə xalqımızın tarixini dərindən öyrənməyə şərait yaradılmırdı. Yalnız Heydər Əliyevin qətiyyəti sayəsində 1970-1980-ci illərdə Azərbaycanda tariximizin öyrənilməsinə, dünya siyasətini dərindən öyrənməyə şərait yaradılmışdı. Xalqımıza orta məktəblərdə, ali və orta ixtisas məktəblərində Marksın, Engelsin, Leninin utopik düşüncəsinin məhsulu olan, heç bir siyasi, hüquqi, dünyəvi əhəmiyyəti olmayan, ən əsası isə dünyanın siyasi sistemində, quruluşunda zorakı yol ilə dəyişiklik edərək, qarşıdurma, konfliktlər, müharibələr törətməyə hesablanmış, dünya kapitalizm sisteminin ən yüksək inkişaf mərhələsini imperializmi ölməkdə və çürüməkdə olan kapitalizm adlandıran, əslində isə süquta uğramış sosializm, kommunizm nəzəriyyələrinin totolitar kommunist rejiminin ideologiyası olan Marksizm-Leninizm ideologiyası tədris edilirdi.

Marksizm-Leninizm universitetləri fəaliyyət göstərirdi. Onda sual olunur niyə respublikamızda Heydər Əliyevşünaslıq akademiyası, institutu yaradılmır?!

Bənzərsiz dünyəvi siyasi xadim, Qurtuluş dahisi, müasir müstəqil Azərbaycan Respublikasının qurucusu və banisi Heydər Əliyev siyasətinin təbliğ edilməsi, öyrənilməsi, mənimsənilməsi, "Heydər-Xalq", "Xalq-Heydər" fəlsəfəsinin əbədiliyinin təmin edilməsi məqsədilə şəhər və rayonlarda yaradılmış mərkəzlərin fəaliyyətində, işində əsaslı dönüş yaratmaq və dövlət nəzarətini artırmaq məqsədilə prezident yanında Heydər Əliyev Mərkəzlərini idarəetmə komitəsinin, Prezident Adminstrasiyasında Heydər Əliyev Mərkəzləri ilə iş şöbəsinin, mərkəzlərdə Ulu Öndərin siyasətini təbliğ etmə bacarığına malik olan Heydər Əliyevşünasların hazırlanması, təhsil almaları üçün və beləliklə də mərkəzləri peşəkar kadrlarla zənginləşdirmək, qeyri-peşəkarların isə mərkəzlərdən kənarlaşdırmaq üçün Heydər Əliyevşünaslıq Akademiyasının, İnstitutunun, Universitetlərdə fakultələrin, kafedraların təşkil edilməsi müasir dövrümüz, gələcəyimiz üçün çox əhəmiyyətlidir.

Əminəm ki, bu məsələ tezliklə öz həllini tapacaqdır.



**Dəmir QURBANLI, Heydər Əliyev siyasi kursunun təbliğatçısı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Azad Azərbaycan" qəzetinin şöbə müdiri, "Qızıl Qələm", "Azərbaycan Bayrağı", "Xalqın nüfuzlu ziyalısı", "Media" mükafatları laureatı**